UOT 792
https://doi.org/10.59849/2311-8482.2024.3.181

**BAYRAM HACIZADƏ***

# 1980-1991-Cİ İLLƏRDƏ "KİRPİ" SATİRİK JURNALINDA DƏRC OLUNMUŞ DOSTLUQ ŞARJLARI

*Məqalədə 1980-1991-ci illərdə "Kirpi" satirik jurnalında dərc olunmuş Azərbaycan karikaturaçılarının dostluq karikaturalarından bəhs edilir və bu janrın əhəmiyyəti vurğulanır. Karikaturaçı rəssamlarımızın böyük məhəbbət və peşəkarlıqla çəkdikləri karikaturaların qəhrəmanları yeni, seçilən və daha maraqlı nöqteyi-nəzərdən oxuculara təqdim olunur.*

*Jurnalda dərc olunan əmək adamlarının, ictimai-siyasi xadimlərin, tanınmış şəxslərin karikaturaları təhlil edilir.*

***Açar sözlər**: dostluq karikaturaları, satirik jurnal, ictimai-siyasi xadimlər, əsərlər, rəssamlar.*

## Giriş

Əvvəlki illərdə olduğu kimi, 1980-1991-ci illərdə də "Kirpi" satirik jurnalında dostluq şarjlarına geniş yer verilmişdir. Jurnalın rəssamları dövrünün tanınmış insanlarına, siyasi və ictimai xadimlərinə, ziyalılarına həsr olunmuş zənqin şarj qalereyası yaratmışlar. İncə yumorla, duzlu zarafatla müşayiət edilən və Sovet şarj ənənələrinə uyğun olan bu əsərlər qəhrəmanı tənqid etmək və ya ələ salmaq, ona sataşmaq məqsədi ilə çəkilməmişdir. Şarjlar, xüsusilə də dostluq şarjları xeyirxah, yumoristik portret təsviri olub, qəhrəmanın zahiri cəhətlərini saxlamaqla onun xarakterik cəhətlərini qabardır. Onu da qeyd etmək lazımdır ki, 80-ci illərdə, əvvəlki illərdə olduğu kimi, jurnalın səhifələrində tənqidedici, ünvanlı şarjlara rast gəlmirik (*tənqidi şarjlara və ünvanlı karikaturalara əsasən jurnalın 50-ci illərə aid nömrələrində rast gəlmək olar*). Rəssamlarımız dövrünün tanınmış simalarının, əmək və müharibə qəhrəmanlarının, siyasi və ictimai xadimlərinin şarjlarını çəkir, geniş oxucu kütləsinin yaxşı tanıdığı insanları tamamilə yeni, xoş və maraqlı rakursdan təqdim edirdilər. Bu şarjlar əsasən yubileylər, əlamətdar hadisələr münasibəti ilə çəkilirdi. Tanınmış şəxsiyyətlərə yeni baxış, yeni yanaşma nümunəsi olan bu rəsmlər orijinal və nadir sənət əsərləri kimi qiymətlidir [1, s.339].

## Əsas təhlil

Dostluq şarjında rəssamın vəzifəsi təkcə modeli olduğu kimi çəkmək yox, eyni zamanda onun qrafik simvolunu tapmaqdır. Bu simvol təqdim olunan qəhrəmanın şərti işarəsinə çevrilir və onun adı və soyadı qədər əhəmiyyətlidir. Karikaturanın bir növü olan şarj uzunmüddətli müşahidələr nəticəsində əldə edilən simvollardan ibarət modeldir (rəsmdir). Əslində bu model əks etdirdiyi qəhrəmana onun özündən daha çox oxşamalıdır [5]. Əlbəttə, bu, müəllifdən son dərəcə yüksək peşəkarlıq və təcrübə tələb edir. Öz yaradıcılığında bütün bu tələblərə cavab verən rəssamlarımız 80-ci illərdə dostluq şarjı sahəsində böyük uğurlar əldə etmişlər. "Kirpi"nin rəssamlarından A.Quliyev (Adil Elçin), Q.İdrisov (İ.Qərib), Ə.Zeynalov, E.Abdullayev, Y.Əsədov və başqalarının bu istiqamətdə fəaliyyəti diqqətəlayiqdir. Həmin dövrdən onilliklər keçməsinə baxmayaraq, onların yaratdıqları əsərlər bu gün də aktualdır [4].

Bu illər artıq jurnalın bədii redaktoru vəzifəsində çalışan A.Quliyevin şarj sahəsində fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Tanınmış karikatura ustasının yaradıcılığında ictimai-siyasi yük daşıyan ciddi mövzulu karikaturalarla yanaşı, gülüşlə müşahidə olunan, tamaşaçıda xoş ovqat yaradan dostluq şarjları da mühüm yer tuturdu. Bu illər ərzində A.Quliyev dövrünün tanınmış insanlarına, əmək qəhrəmanlarına, incəsənət xadimlərinə həsr edilmiş zəngin şarj qalereyası yaratmağa nail olmuşdur. Sovet dövründə şarj janrının geniş yayılmış qolu olan dostluq şarjları rəssamın yaradıcılığının mühüm hissəsini təşkil edirdi. A.Quliyevin böyük sevgi ilə işləyib hazırladığı dostluq şarjları özündə məhz dostluq, xeyirxahlıq, gülüş, təbəssüm və xoş ovqat əks etdirir və əlbəttə, yüksək bədii səviyyəsi ilə seçilirdi. Rəssamın Süleyman Rəhimovun anadan olmasının 80, Sabit Rəhmanın 70 illiyi, eləcə də Xalq şairi Rəsul Rza, Xalq artisti Rəşid Behbudov, əmək qəhrəmanları Zəminə Aslanova, Qəzənfər Əliyev və Məmmədrza Rəsulova Sosialist Əməyi qəhrəmanı adı verilməsi münasibəti ilə işləyib hazırladığı dostluq şarjları "Kirpi" jurnalında 1980-ci ildə dərc olunmuşdur. Bu şarjların kompozisiya quruluşunda, həmçinin təsvir etdiyi qəhrəmanların bədii həllində müəllif öz dəst-xətinə sadiq qalmış, ənənəvi yolla gedərək özünə xas olan üslubunu saxlamışdır.

A.Quliyevin görkəmli rəssam Əzim Əzimzadənin 100 illik yubileyinə həsr edilmiş və “Kirpi”nin 1980-ci ilin 10-cu nömrəsinin üz qabığında dərc olunmuş dostluq şarjı çox nadir və qiymətli əsərdir. Rəsmin ön planında Xalq rəssamı Ə.Əzimzadə öz xələfi – bu vacib işin layiqli davamçısı olan kirpi ilə birlikdə təsvir edilmişdir. Müəllif görkəmli sənətkarı kirpinin ona uzatdığı yubiley nömrəsini imzalayan vəziyyətdə göstərmişdir. Təbliğat və təşviqat cəbhəsinin ən mübariz və döyüşkən əsgərlərindən biri olmuş Ə.Əzimzadə öz imzası ilə gənc davamçısına sanki xeyir-dua verir, kirpiyə bu vacib və əhəmiyyətli işində uğurlar arzulayır. Şarj belə bir şəkilaltı müraciətlə müşayiət olunur:

- “Əzim müəllim, xahiş edirəm yubileyiniz qeyd olunan bu nömrəmizə avtoqraf verəsiniz!”. Yüksək peşəkarlıqla işlənmiş bu şarj qəhrəmanın zahiri görünüşünün qrafik həlli və xarakterik cəhətlərinin ifadəsi baxımından diqqətəlayiqdir. Əsər kompozisiya quruluşunun bütövlüyü, modelin yaradıcılıq xüsusiyyətlərinin qabardılması, xarakterik manera və pozalarının ifadəliliyi baxımından şarj janrında irəliyə doğru atılmış uğurlu addım hesab oluna bilər.

Tanınmış karikatura ustası A.Quliyevin yüksək peşəkarlıqla işləyib hazırladığı, özünəməxsus rəssam dəst-xəti ilə seçilən digər dostluq şarjı jurnalın 1981-ci il nömrələrindən birində dərc edilmişdir. Bu əsərdə də müəllif öz zəhməti ilə ucalan əmək qəhrəmanlarını jurnalın oxucularına incə yumorla və çox orijinal vəziyyətdə təqdim etmişdir [3, s.66].

A.Quliyevin mətbuat işçilərinin, tanınmış yazıçı-jurnalistlərin, tənqidçilərin yubileyləri münasibəti ilə işləyib hazırladığı dostluq şarjları jurnalın səhifələrində mütəmadi olaraq dərc olunurdu. Qocaman jurnalist Qulam Məmmədlinin 85 illiyi (1982), yazıçı-jurnalist Şükür Həbibzadənin 60 illiyi (1982), satirik yazıçı Məhərrəm Əlizadənin 70 illiyi (1983), jurnalist Mürşüd Dadaşovun 60 illiyi (1989), Rizvan Cəbiyevin 50 illiyi (1990) münasibəti ilə çəkilmiş dostluq şarjlarında rəssam təsvir etdiyi qəhrəmanların təkcə portret bənzərliyi ilə kifayətlənməyərək, tamaşaçılara hər bir fərdin üslub tərzini və sənət aləmindəki mövqeyini uğurla çatdırmağa nail olmuşdur.

Tanınmış qrafik-rəssam A.Quliyevin Xalq yazıçısı Mirzə İbrahimova (1981), “Kirpi”nin baş redaktoru Rüfət Əhmədzadəyə (1989), Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadəyə və akademik İmam Mustafayevə (1990) həsr etdiyi dostluq şarjları isə yuxarıda haqqında danışdığımız şarjlardan fərqlənirdi. Bu şarjlarda müəllif yüksək rəsmçəkmə məharəti nümayiş etdirərək, obrazları realistik prinsiplərə uyğun şəkildə işləmişdir.

“Kirpi” jurnalında 1988-ci ildə Xalq yazıçısı Anarın və Xalq artisti Həsənağa Turabovun 50 illiyi, 1991-ci ildə Xalq artisti Nəsibə Zeynalovanın 75 illiyi münasibəti ilə dərc olunmuş dostluq şarjlarında isə A.Quliyev, əksinə, obrazların forma və həcmlərinə sərbəst yanaşmışdır. O, qəhrəmanların bədən quruluşunu müəyyən qədər kiçildərək, üz cizgilərini isə qabardaraq fiqurları transformasiya etmiş və bununla da yumoristik obraz yaratmağa nail olmuşdur. Yazıçı Anara həsr olunmuş dostluq şarjında rəssam öz qəhrəmanını Qobustanda, qədim divar rəsmlərinin arasında, adını qaya üzərinə həkk etdiyi vəziyyətdə təsvir etmişdir. İkinci dostluq şarjında isə müəllif qəhrəmanını – aktyor H.Turabovu at kimi yəhərlənmiş iş masası üzərində təsvir etməklə onun daim yüksəkdə, məsul vəzifədə, yaradıcılıq axtarışında olmasını vurğulamışdır. O, Xalq artistini üzərində ADDT (Azərbaycan Dövlət Dram Teatrı) yazılmış papaqda, bəy obrazında təsvir etmiş, onu qələmlərlə “silahlandırmışdır”. Aktrisa Nəsibə Zeynalovaya həsr etdiyi dostluq şarjında isə müəllif öz qəhrəmanını qaynana obrazında, özünəməxsus duruşla və əda ilə təsvirə etmişdir. Obrazların hər üçünün pozası, əllərinin jesti və üzlərinin ifadəsində qəhrəmanların tipik xarakterik xüsusiyyətlərini daha çox qabartmaqla rəssam onları əzəmətli göstərməyə müvəffəq olmuşdur [2, s. 247].

Özündə zəngin şarj ənənələrini yaşadan “Kirpi” satirik jurnalının səhifələrində dərc olunmuş dostluq şarjları obrazların orijinal, təkrarsız təqdimat tərzi və yüksək bədii səviyyəsi ilə seçilirdi. Elə ona görə də həmin əsərlər öz aktuallığını bu gün də saxlaya bilmişdir. Əvvəlki illərdə olduğu kimi, 80-ci illərdə də satirik qrafikanın imkanlarından yararlanan rəssamlarımız milli qəhrəmanların, tanınmış şəxsiyyətlərin, şair və yazıçıların obrazlarından uğurla istifadə edir, oxucuların diqqətini cəmiyyət üçün əhəmiyyət kəsb edən hadisələrə yönəldirdilər. Xalq arasında dərin hörmətə və nüfuza malik olan bu qəhrəmanlar ümumiləşdirilmiş obraz kimi təqdim olunaraq xalqın adından danışır, hadisələrə geniş ictimaiyyətin münasibətini bildirirdilər.

Görkəmli şəxsiyyətlərin, şair və yazıçıların, milli qəhrəmanların portretlərindən məharətlə istifadə edən rəssamlarımız bu illər karikaturanın bütün tələblərinə cavab verən əsərlər yaratmışlar. Əksər hallarda həmin rəsmlərin portret və ya dostluq şarji olması mübahisə doğurur, çünki bu rəsmlər əksər hallarda adi şarjdan daha çox, siyasi karikatura və ya təbliğat plakatı xarakteri daşıyır və ciddi ictimai-siyasi əhəmiyyət kəsb edirdi. Bəzən isə bu rəsmlərdə karikatura, plakat, şarj və təbliğat

xarakterli rəsm arasında olan zəif və zərif sərhəddin tamamilə itdiyinin şahidi oluruq. Belə rəsmlərdən biri "Kirpi" jurnalının 1988-ci ilin 19-cu nömrəsinin üz qabığında dərc olunmuşdur. A.Quliyevin çox böyük ustalıqla işləyib hazırladığı həmin rəsmdə Azərbaycanın görkəmli şairi Mikayıl Müşfiqin (1908-1938) obrazı təsvir edilmişdir. Rəsm 1938-ci ildə "donos" (böhtan) qurbanı olmuş nakam şairin şeirindən götürülmüş bir neçə sətirlə təqdim olunur:

"Cahan ki solmayan bir bağça, bağdır.
Burda rəvadırmı gülmədən ölmək?!.
Yazıq o şəxsə ki, qaraqabaqdır,
Nə gözəl yaraşır insana gülmək!"

Tanınmış karikaturaçı rəssam şairin obrazını tam realistik prinsiplərə uyğun şəkildə işləmiş, qəhrəmanın qarşısında yerləşdirdiyi simasız, ikiüzlü böhtançını isə eybəcərləşdirərək, cılız və gülünc formalarda təsvir etmişdir. Əlbəttə, bu rəsmdə əsas tənqid hədəfi Müşfiq və onun kimi neçə-neçə istedadlı şair və yazıçı, elm və incəsənət xadimi, siyasətçi və ziyalıya şər yaxan, onları ləkələməyə çalışan və bununla onları güdaza vermiş şərəfsiz "donosçu"lardır. Heç də təsadüfi deyildir ki, şairin məzarına üzərində "Müşfiqə dostundan" sözləri yazılmış əklillər, güllər düzən bu "qəhrəman"ın cibindən 1937-ci ildə yazdığı Müşfiqi xalq düşməni adlandırdığı "donos" məktubu görünür. Rəssam əsas ideyanı oxucuya Mikayıl Müşfiq obrazından məharətlə və məqamında istifadə edərək çatdırmağa nail olmuşdur.

Azərbaycanın görkəmli bəstəkarı Üzeyir Hacıbəyovun yüzillik yubileyi ölkənin mədəni həyatında mühüm hadisəyə idi. Dövlətin bu əlamətdar hadisə ilə bağlı yüksək səviyyədə keçirdiyi tədbirlərə bütün respublika ictimaiyyəti qoşulmuşdu. Bəstəkarlarımız, yazıçı və şairlərimiz, mətbuat işçilərimiz və rəssamlarımız da bu yubileylə bağlı yeni əsərlər yaratmışdılar. Belə əsərlərdən biri də A.Quliyevin 1985-ci ildə jurnalın üz qabığında dərc olunmuş karikaturasıdır. Yüksək peşəkarlıqla və sevgi ilə işlənmiş bu karikaturada böyük şəxsiyyət Üzeyir Hacıbəyov öz qəhrəmanlarının ətrafında təsvir olunmuşdur. Rəsmdə Üzeyir Hacıbəyovun əsərlərinin qəhrəmanları görkəmli bəstəkarın Milli konservatoriyanın qarşısında ucaldılmış abidəsi önünə gül dəstələri ilə gələrək ona yubiley münasibəti ilə öz təbriklərini çatdırır, hörmət və ehtiramlarını bildirirlər. Yumora, sağlam gülüşə istinad edən bu və bu kimi şarjlara baxan tamaşaçı yaxşı tanıdığı qəhrəmanları yeni və daha maraqlı rakursdan görür. Elə buna görə də tanınmış karikatura ustası A.Quliyevin müəllifi olduğu şarjlar tamaşaçıların böyük rəğbətini qazanmışdır.

1980-1991-ci illərdə "Kirpi" satirik jurnalının səhifələrində dərc olunmuş dostluq şarjlarının müəllifləri haqqında danışarkən jurnalın oxucularına öz imzaları ilə artıq yaxşı tanış olan Ə.Zeynalov, E.Abdullayev, Q.İdrisov və Y.Əsədovun fəaliyyətini də qeyd etmək lazımdır. Seçdikləri naturaya olduqca diqqət və qayğı ilə yanaşan karikaturaçı rəssamlarımızın əsərlərində hər bir obrazın özünəməxsus cəhətlərinin şişirdilməsi və qabardılmasının xoş məramla və sevərəkdən edildiyi aydın görünür. Təsadüfi deyildir ki, karikaturaçı rəssamlarımızın yaratdıqları şarjlarda qəhrəmanların əksəriyyəti gülümsəyir [4].

"Kirpi"nin 1984-cü ilin 18-ci nömrəsinin üz qabığında bu jurnal ilə onun ilk nömrəsindən əməkdaşlıq etmiş, müxtəlif mövzulu əsərlərin müəllifi kimi şöhrət qazanmış E.Abdullayevin Qasım Bəy Zakirin 200 illiyi münasibəti ilə çəkdiyi dostluq şarjı dərc olunmuşdur. Yüksək peşəkarlıqla işlənmiş bu rəsmdə müəllif öz qəhrəmanını yüksəldərək dövrünün cəhalət tör-töküntüləri ilə mübarizədə qələmini silaha çevirmiş fədai kimi təsvir etmişdir. Şarjı müşayiət edən "Ehtiyatım yoxdur, paşadan, xandan, Analar doğublar şiri-nər məni" misralarından da göründüyü kimi, rəssam Qasım bəy Zakiri öz dövrünün nadanlığa, köhnə, çürümüş adətlərə qarşı barışmaz mövqe tutan mübariz əsgəri, öndə gedən ziyalısı kimi təqdim edir.

Tanınmış karikatura ustası Ə.Zeynalov da müəllifi olduğu "Yazıçılar İttifaqının cəsarət bülbülləri" karikaturasında tanınmış şəxsiyyətlərin şarjlarından istifadə edərək o illər üçün aktual olan bir problemi gündəmə gətirmişdir. Jurnalda 1986-cı ildə dərc olunmuş həmin rəsmin süjeti Səməd Vurğun ilə Süleyman Rüstəmin dialoqu əsasında qurulmuşdur. Rəsmdə S.Vurğunun Bakının mərkəzində ucaldılmış abidəsinin önündə Xalq şairini ziyarətə gəlmiş S.Rüstəm və Yazıçılar İttifaqının üzvləri təsvir olunmuşdur. Yazıçılar İttifaqında xoşagəlməz hadisələrin – bəzi Sovet yazıçılarının əsərlərində tənqidin ünvanlı, süjetin kəskin olmamasının, boşboğazlığın, məddahlığın, simasızlığın, yaltaqlığın baş alıb getməsinin tənqidinə yönəlmiş bu karikaturada müəllif şarj üslubundan uğurla istifadə etmişdir. Belə xoşagəlməz halların artıq ifrat dərəcəyə çatmasını personajların dili ilə – Xalq şairləri S.Vurğun və S.Rüstəm arasındakı duzlu dialoqla göstərən müəllif əslində bu vəziyyəti geniş

ictimaiyyətin nəzərinə çatdırmaq istəmişdir. İctimai tənbeh, ictimai qınaq xarakteri daşıyan bu və bu kimi karikaturalarda rəssam öz peşəkarlığı və ziyalı mövqeyini aydın şəkildə göstərmişdir. Yüksək peşəkarlıqla işlənmiş bu karikaturada satirik söz və satirik rəsm bir vəhdət təşkil edir. Cəmiyyətdə həmin dövrdə mövcud olan konkret problemin işıqlandırıldığı bu əsər müasir dövr üçün də aktualdır.

"Kirpi" satirik jurnalı ilə bu illərdə daha fəal əməkdaşlıq etmiş, əsasən "sözsüz" karikaturaların mahir ustası kimi tanınmış Qərib İdrisov da şarj sahəsində böyük uğurlara imza atmışdır. Özünəməxsus dəst-xəti, cəsarətli ştrixləri ilə seçilən, əsərləri aydın və lakonik ifadə tərzinə, güclü ideya yükünə malik olan rəssamın "Molla Nəsrəddinlə Kirpinin müsahibəsi" başlığı altında dərc olunmuş dostluq şarjları tanınmış şair və yazıçılarımıza, jurnalla əməkdaşlıq edən qələm və söz ustalarına həsr olunmuşdur. Q.İdrisovun jurnalda 1981-ci ildə dərc olunmuş bu şarjlarında dövrün tanınmış simalarından Süleyman Rəhimov, Süleyman Rüstəm, Mirzə İbrahimov, Əli Vəliyev, İlyas Əfəndiyev, Mirvarid Dilbazi, Əbülhəsən Ələkbərzadə, Nəbi Xəzri, Bəxtiyar Vahabzadə, Qabil, Hüseyn Arif, Maqsud və Rüstəm İbrahimbəyovlar, Anar, Nəriman Həsənzadə, Yusif Əzimzadə, Cabir Novruz, Hüseyn Abbaszadə, Fikrət Qoca və Yusif Səmədoğlunu asanlıqla tanımaq olur. Belə dostluq şarjları obrazların orijinal və təkrarsız təqdimat tərzinə, tanış simaların yeni rakursdan işıqlandırılmasına görə seçilir [2, s. 76].

O illər gənc olmasına baxmayaraq, jurnalla sıx əməkdaşlıq edən, müxtəlif mövzulu karikaturaları və dostluq şarjları ilə dövri mətbuat səhifələrində davamlı olaraq çıxış edən rəssamlarımızdan biri də Yavər Əsədov idi. Rəssamın 1983-cü ildə SSRİ dövlət mükafatı və Ümumittifaq Lenin Komsomolu mükafatı laureatlarına dostluq şarjları, həmçinin 1984-cü ildə SSRİ dövlət mükafatı laureatlarına çəkdiyi dostluq şarjları əmək və zəhmət adamlarının, ictimai və siyasi xadimlərin şarj qalereyasını zənginləşdirir. Geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş bu silsilə rəsmlərində müəllif hər bir obraza xas olan xarakterik saç düzümü, üz quruluşu və maneraları qəhrəmanların yaradıcılıq tərzinə, eləcə də şarj janrının tələblərinə uyğun olaraq tamamilə yeni rakursdan işıqlandırmışdır.

Yavər Əsədovun kənd təsərrüfatı sahəsində, istehsalatda çalışan, öz işinin qəhrəmanı olan Azərbaycan qadınlarına çəkdiyi şarjlar jurnalın 1984-cü il nömrəsində dərc edilmişdir. Əmək qəhrəmanları Ş.Həsənova, N.Məmmədova, Ş.Xəlilova, X.Həsənova, Y.Abdullayeva, M.Allahverdiyeva, N.Qurbanova, T.Musayeva və H.Əliyevaya həsr edilmiş bu dostluq şarjları təbrik şeiri ilə müşayiət olunur:

"Qiymətini bilmişik hər ötüşən anın da,
Töhvəmiz var ellərin şöhrətində, şanında.
Vətən kəhkəşanında parlaq dan ulduzuyuq,
Xalqımızın elçisi – Azərbaycan qızıyıq!".

Qəhrəman Azərbaycan qadınının əmək cəbhəsindəki qələbələrini vəsf edən bu şeir və dostluq şarjları təbliğat xarakterli rəsm kimi də qəbul edilə bilər. Bu rəsmlərdə müəllif uzun müddət apardığı müşahidələr nəticəsində modelin lakonik qrafik simvolunu tapmış, müəyyən detallar və loqotiplər vasitəsi ilə obrazların informativliyinə nail olmuş, qəhrəmanların sifət cizgilərini, demək olar ki, eynilə saxlamışdır. Rəsmlərində güclü iradəyə malik, məğrur görünüşlü Şərq qadınlarının üzünü ifadəli cizgilərlə təsvir etməklə müəllif onların dəqiq obrazlarını yaratmağa nail olmuşdur.

Bu və bu kimi digər karikaturalar və şarjlarda rəssamlarımız tanınmış şəxsiyyətlərin əmək və zəhmət adamlarının, incəsənət xadimlərinin obrazlarından və əlbəttə, şarjın bütün imkanlarından yerində və məharətlə istifadə edərək məzmunca maraqlı, formaca ifadəli olan çoxsaylı əsərlər yaratmışlar.

**Nəticə**

Karikaturanın ayrılmaz tərkib hissəsi olan şarj haqqında və bu sahədə çalışan rəssam-jurnalistlərimizin yaradıcılığı haqqında mülahizələrə yekun kimi demək olar ki, milli kökə, dərin mədəniyyətə, istinad edən karikaturaçılarımız şarj sahəsində xeyli sanballı əsərlər yaratmış, şarjın bədii üslubunun, metod və prinsiplərinin daha dərindən mənimsənməsi istiqamətində kifayət qədər uğurlar qazanmışlar. Digər illərdə olduğu kimi, 1980-1991-ci illərdə də karikatura ustalarımızın məhsuldar və səmərəli fəaliyyəti sayəsində yüksək ideyalı, dolğun məzmunlu əsərlər yaranmış, Azərbaycan satirik qrafikası inkişaf edərək təkmilləşmişdir.

**ƏDƏBİYYAT**

1. Hacızadə B. Kirpinin rəssamları (1952-1969-cu illər) I cild. Bakı: "Səda" nəşriyyatı, 2016, 400s.
2. Hacızadə B. Kirpinin rəssamları (1980-1991-ci illər). III cild. Bakı: "Səda" nəşriyyatı, 2016, 400s.
3. *Nəcəfov M. Azərbaycanın karikaturaçı rəssamları.* Bakı: "İşıq" nəşriyyatı, 1972, 94 s.
4. www.azercartoon.com
5. www.soros.korelia.ru (Москин Д. Краткая энциклопедия карикатуры).



***Əməkdar incəsənət xadimi,***
***Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor***
***E:mail: azercatoon@gmail.com***



**Bayram Hajizadeh**


**FRIENDSHIP CARICATURES PUBLISHED IN "KIRPI" TIRICAL MAGAZINE DURING 1980-1991**


The article discusses Azerbaijani cartoonists' friendship caricatures published in "Kirpi" satirical magazine during 1980-1991, and stresses the importance of this genre. Heroes of the caricatures made by our cartoonists with great love and professionalism are presented to the readers from a new, distinguished and more interesting point of view.

Caricatures of labour men, public and political figures, and renowned persons, publishes in the magazine are analysed.



**Keywords:** *friendship caricatures, satirical magazine, give public and political figures, works, and painters.*



**Байрам Гаджизаде**


**ДРУЖЕСКИЕ ШАРЖИ ОПУБЛИКОВАННЫЕ В САТИРИЧЕСКОМ ЖУРНАЛЕ «КИРПИ» В 1980-1991 ГОДАХ**


В статье рассматривается дружеские шаржи азербайджанских художников – карикатуристов опубликованные в 1980-1991-х годах в сатирическом журнале «Кирпи». Отмечается, что художники никогда не стремились обезобразить своего героя. Напротив, они выявляли характерные и типичные черты образа, его манеру и жесты, а также пытались отобразить его характер, основные черты его профессии и увлечений.



**Ключевые слова:** *дружеские шаржы, сатирический журнал, общественно-политические деятели, творчество, художники.*

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 28.10.2024**
**Son daxilolma tarixi:18.11.2024**